Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

İyul 2023

www.ereforms.gov.az
info@ereforms.gov.az

“ ANCAQ QEYRİ-NEFT SEKTORUMUZ VƏ QEYRİ-NEFT SEKTORUNUN SƏNAYE SAHƏSİ KİFAYƏT QƏDƏR ARTIBDIR.

Deyə bilərəm ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib, halbuki mütləq rəqəmlər o qədər də böyük deyil. Ancaq qeyri-neft sektorumuz və qeyri-neft sektorunun sənaye sahəsi kifayət qədər artıbdır. Qeyri-neft sənayemiz 6,5 faiz artıbdır və qeyri-neft sektoru, ümumiyyətlə, 3 faizdən çox artıbdır.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN sədrliyi ilə 11 iyul 2023-cü il tarixində bu ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışından**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat ____ səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ____ səh. 19

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ____ səh. 21

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2023-cü ilin yanvar-iyun ayları ərzində 18 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-iyun aylarında qeyri-neft sektoru üzrə ixrac 1,8 milyard ABŞ dolları təşkil etmişdir

2023-cü ilin yanvar-iyun ayları ərzində Azərbaycanın ümumi ixracı 18 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə **20,6% artaraq 1,8 mlrd ABŞ dolları** təşkil edib. 2023-cü ilin yanvar-iyun ayları ərzində yeyinti məhsulları üzrə ixrac **459,9 milyon ABŞ dollarına** bərabər olub.

2023-cü ilin yanvar-iyun ayları ərzində spirtli və spirtsiz içkilərin ixracı 5,5 dəfə, şəkər ixracı 53,1%, meyvə-tərəvəz ixracı isə 6,8% artıb.

2023-cü ilin yanvar-iyun ayları ərzində aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 13,1% artaraq 478,2 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 54,1% artaraq 109,2 milyon ABŞ dolları təşkil edib.

2023-cü ilin yanvar-iyun ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (314,4 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (120,7 milyon ABŞ dolları) ikinci, pambıq mahlıcı (68,7 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2023-cü ilin yanvar-iyun ayları ərzində Rusiya Federasiyasına 552,3 milyon ABŞ dolları, Türkiyəyə 512,5 milyon ABŞ dolları, Gürcüstana 180,3 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 68,6 milyon ABŞ dolları, Qazaxıstana isə 58 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2023-cü ilin iyun ayının qeyri-neft ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə **13,8% artaraq 307,6 milyon ABŞ dolları** təşkil edib. 2023-cü ilin iyun ayı ərzində yeyinti məhsulları üzrə ixrac 4,9% artaraq 125,5 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 20,8% artaraq 182,1 milyon ABŞ dollarına bərabər olub.

2023-cü ilin iyun ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (148,3 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (47,9 milyon ABŞ dolları) ikinci və Gürcüstan (19,1 milyon ABŞ dolları) üçüncü olub.

2023-cü ilin iyun ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında albalı və gilas (40,1 milyon ABŞ dolları) birinci, pomidor (tomat) (29,3 milyon ABŞ dolları) ikinci və pambıq mahlıcı (18,3 milyon ABŞ dolları) üçüncü olub.



# 2023-CÜ İLİN YANVAR-İYUN AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2023-CÜ İLİN İYUN AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



2022 | 2023

+13,8%

**2022:** 270,3 mln

**2023:** 307,6 mln



# 2023-CÜ İLİN İYUN AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2022-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2023-CÜ İLİN YANVAR-İYUN AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI
## (2022-ci ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)





# 2023-CÜ İLİN YANVAR-İYUN AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2023-CÜ İLİN İYUN AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ
(2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI iyul



# 2023-CÜ İLİN YANVAR-İYUN AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2023 | 2022 |
|---|---|---|
| Elektrik enerjisi | 314,4 | 35,2 |
| Tomat (pomidor) | 120,7 | 126,9 |
| Pambıq mahlıcı | 68,7 | 136,9 |
| İlkin formalı polipropilen | 64,9 | 41 |
| Qızıl | 60,5 | 79,4 |
| Meşə fındığı | 58,8 | 55,6 |
| Metanol (metil spirti) | 46,8 | 70,7 |
| Polimerləşmədə ilkin formalı maddələr | 43,8 | 42,2 |
| İlkin formalı propilen sopolimerləri | 43,7 | 11,8 |

# 2023-CÜ İLİN YANVAR-İYUN AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2023-CÜ İLİN İYUN AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2022-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI iyul

| | 2023 | 2022 |
|---|---|---|
| Albalı | 40,1 | 34,2 |
| Tomat (pomidor) | 29,3 | 35,8 |
| Pambıq mahlıcı | 18,3 | 13,1 |
| Qızıl | 13,3 | 16,5 |
| Çiyələk | 9,6 | 6,7 |
| Metanol (metil spirti) | 9 | 10,6 |
| PE İlkin formalı propilen sopolimerləri | 8,6 | 0,31 |
| PE Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 8,5 | 1,1 |
| Polimerləşmədə ilkin formalı maddələr | 8,4 | 8,8 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2023-cü ilin yanvar-iyun ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, Şirinov Elvin Valeh oğlu, "Baku Steel Company" QSC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Best Logistik" MMC, "STP Global Cable" MMC, "P-Aqro" MMC, "My Fruit" MMC, "Almeyvə" MMC, "Mega Fruit Az" MMC

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə "Azərenerji" ATSC  başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: ARDNŞ-nın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azəripək" MMC, "ASK Tütün" MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2023-CÜ İLİN YANVAR-İYUN AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI iyul



# 2023-CÜ İLİN YANVAR-İYUN AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2023 İXRAC İCMALI iyul




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** "AzerGold" QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2023-cü ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) **9,5 milyon ABŞ dolları** dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2023-cü ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) tərəfindən dünyanın **43 ölkəsinə 9,5 milyon ABŞ dolları** dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. Azərbaycan Respublikasının Kosmik Agentliyinin (“Azərkosmos”) xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. 2023-cü ilin iyun ayında isə Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) dünyanın **40 ölkəsinə 1,7 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2023-cü ilin yanvar-iyun ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə 2,7 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 2,1 milyon ABŞ dolları ilə Lüksemburq, 837,7 min ABŞ dolları ilə BƏƏ, 522,2 min ABŞ dolları ilə Almaniya və 444,4 min ABŞ dolları ilə Pakistan qərarlaşıb.

# 2023-CÜ İLİN YANVAR-İYUN AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 9,5 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR

2023 İXRAC İCMALI iyul



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| Məbləğ | Ölkə |
|---|---|
| 2,7 mln $ | Birləşmiş Krallıq |
| 2,1 mln $ | Lüksemburq |
| 837,7 min $ | BƏƏ |
| 522,2 min $ | Almaniya |
| 444,4 min $ | Pakistan |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2023-cü ilin yanvar-iyun ayları ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **999,9 milyon manatlıq** əməliyyat aparılıb.

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2023-cü ilin yanvar-iyun aylarında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 999,9 milyon manat, yalnız iyun ayında isə **148,6 milyon manat** dəyərində əməliyyat aparılıb.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2023 İXRAC İCMALI iyul

| | 2021* | 2022 | 2023 |
|---|---|---|---|
| Yanvar | 72,2 | 204,7 | 171,5 |
| Fevral | 112,2 | 186,5 | 162,3 |
| Mart | 93,2 | 158,6 | 218,1 |
| Aprel | 64,1 | 136,6 | 126 |
| May | 81,3 | 184,1 | 173,4 |
| İyun | 89,7 | 203,6 | 148,6 |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| **Cəmi** | **512,7 mln** | **1,1 mlrd** | **999,9 mln** |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2023-cü ilin iyul ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 22,6 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2023-cü ilin iyul ayı ərzində **102 müraciət** daxil olub. Müvafiq dövr ərzində **231 ədəd sertifikat** (79 ədəd mənşə, 147 ədəd fitosanitar, 2 ədəd baytarlıq, 3 ədəd CİTES) təqdim edilib.

2023-cü ilin iyul ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **22,6 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidi cecəsi, pendir, qənnadı məmulatları, narşərab, çaxır, nar, manqo, portağal və qarışıq şirələr, limonad, çaxır, koka-kola, sprite, çips məhsulları, dondurma, duzlanmış qoyun bağırsağı, iribuynuzlu heyvanların submәhsulu, alpaka, tovuzquşu, tibbi zəli, kəsilmiş və kol qızılgüllər, su nasosları və hissələri, istifadəyə yararsız elektron tullantı, sement istehsalı üçün dəyirman, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, polad boru, pambıq mahlıcı, süd məhsulları, meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Böyük Britaniya, Gürcüstan, Türkiyə, Rusiya, İtaliya, ABŞ, Koreya, Almaniya, Belçika, İsrail, Türkmənistan, İran, Suriya, Livan, Qazaxıstan, Qırğızıstan üstünlük təşkil etmişdir.



# 2023-CÜ İLİN İYUL AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

**(milyon ABŞ dolları ilə)**

2023
İXRAC İCMALI
iyul



# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR

(faizlə)

2023 İXRAC İCMALI iyul

**63,4%**

Fitosanitar sertifikatı

**34,4%**

Mənşə sertifikatı

**1,3%**

CİTES sertifikatı

**0,9%**

Baytarlıq sertifikatı

## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
Center for Analysis of Economic Reforms and Communication
Центр Анализа Экономических Реформ и Коммуникаций

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən “İxrac İcmalı” jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat